

ŞƏRQİYYƏ BALACANLI

# ATASIZ GÜNLƏRİ ANIRAM

Ata - yer üzündə qibləgahımız,
Ata - evimizin daş divarıdır.
Atasız böyümək sonsuz ahımız,
Onsuz həyat dadsız, ömür yarıdır.

Əlim elə həsrət, başım sığala,
Batır tikan kimi bu söz dilimə.
Kaş, bircə yol deyə: Gülüm, can bala!
Bir bənövşə üzüb verə əlimə.

Bu yaşda başımdan gör nələr keçir,
Bilmirəm bu arzu, yoxsa xəyaldır.
Atasız günləri anıram bir-bir.
Yazdığım, dediyim bir ərzi-haldır.

# ATAMIN ŞƏKİLLƏRİ

*Şəhid övladı Ramil Musayevə*

Atamın şəkilləri düzülübdür yan-yana,
Onu: - Ramilim! - deyib səsləyir hər gün ana.

Cəbhə dostların ancaq danışır hünərindən,
Necə övlad olmusan... Qan almısan sən qana.

Sən ölməz bir igidsən, əbədi qəhrəmansan,
Düşməni ağlar qoyub, döndün dildə dastana.

Anamın üzü gülmür, fərəhi olsam da mən,
Sənə sədaqətiylə dözür dərdə, hicrana.

Vətənə məhəbbətin ən uca zirvəsi bu -
Oğul ana yolunda yanır, dönür qurbana.

Gücümdür, qüvvətimdir elin xeyir-duası,
Hər gün mələklər gəlir yaşadığım ünvana.

Şərqiyyə nənəm deyir: böyü, boy at, əzizim,
Hər səhər günəş kimi nur saç Azərbaycana!

# ANA

Həsrətəm əlinin sığalına mən,
Çoxdandır Qarabağ gözləyir bizi.
Anadır, bəlkə də inciyir Vətən,
İllərdir gözləyir köməyimizi.

Bir zaman tökdülər al qanımızı,
Dərdim sığan deyil sözə, dastana.
Əldə bayraq etdik vicdanımızı,
Hər qarış torpağı boyadıq qana.

Şəhidlər ucaltdı sizi göylərə,
Şərəfdir şəhidin anası olmaq.
Min yol alqış olsun igidə, ərə.
Ən xoşbəxt anadır azad Qarabağ.

Ağlayıb sızlama, dik dur ayaqda,
Müqəddəs anasan, ucadır adın.
Ən qürurlu övlad mənəm dünyada,
Anamdır dünyada ən gözəl qadın!

# POLADIM

*Şəhid generalımıza*

Düşmənə nifrətin adına çəkdi,
El üçün ürəyi ipək Poladım!
Vətən özü idi, yurd özü idi,
Sənin sinəndəki ürək, Poladım!

Sən ən çətin gündə, qeyrət zamanı,
Qanlı qurban etdin əziz bir canı.
Ayağa qaldırdın Azərbaycanı,
Oldun qəzəb, silah, dirək, Poladım!

Adınla dik tutduq biz başımızı,
Zəfərlə bitirdik savaşımızı.
Görmək istəmirsən göz yaşımızı,
Gərək görüşəndə gülək, Poladım!

# RAMİLİM

Şəhid olduğundan bir il ötdü

Nə olar, doğma yurda
Pənah gətir, Ramilim!
Hamıya əl tutardın,
Gəl, əl yetir, Ramilim!

Dərdimiz aşır başdan,
Günümüz keçir daşdan.
Qayıtmadın savaşdan,
Yolmu itir, Ramilim?

Sinə yox, oxlanmamış,
Halımız yoxlanmamış.
Eh, güllər qoxlanmamış,
Açır, bitir, Ramilim!

Əbədidir sürgünüm,
Yetişmir sənə ünüm.
Bir ildir anım, günüm
Sənsiz ötür, Ramilim!

Yer üzü dönüb közə,
Yanında yer et bizə.
Naləmiz dönür sözə,
Sətir-sətir, Ramilim!

# ZƏHRANIN SUÇU NƏ?

İki yaşlı Zəhranın,
Suçu nə idi, Allah?!
Terror qurbanı oldu
Öz evində bir sabah.

Sən yağının əlini
Sındıra bilməzdinmi?
Sən yaxşıya köməksən,
Köməyə gəlməzdinmi?

İki yaşlı qızcığaz,
Nə günah işləmişdi?
Kiməsə əzab verib,
Kiməsə çor demişdi?!

Tarix utansın gərək,
Yersiz axan qan üçün.
Cavabdehsən axı sən,
Yaratdığın can üçün!

Böyüyüb yer tutardı
Analar sırasında.
Zəhra - bir mələk adı
Mələklər arasında.

Zəhra yatdığı məzar,
Nöqtə olsun savaşa.
Zəhra ürəyimizdə
Böyüyür, dolur yaşa!

# RAMİLİN DÜŞÜNCƏLƏRİ

*Körpə Ramil Musayevin dilindən*

Məni uşaq saymayın,
Bu elin qalasıyam.
Doğulandan əsgərəm,
Mən şəhid balasıyam.

Qapımızı bəzəyir,
Üçrəngli, şanlı bayraq.
Evimizə üz tutur,
Hər gün onlarla qonaq.

Mənim oyuncaqlarım
Tankdır, topdur, tüfəngdir.
Mənim atasız dünyam,
Dəyişməyən ahəngdir.

Mən atamın oğluyam,
Daşıyıram adını.
Vətən qoymur dərk edəm
Yetimliyin dadını.

Mən körpə qürurumla,
Boy atıb, böyüyəcəm.
İnşallah, dil açanda
Yaşa, Vətən! - deyəcəm!

# ARİZİM

Ömrümün ahıl çağında,
Arzumun barlı bağında,
Mən səadət sorağında,
O sənin olsun, Arizim!

İyirmi yaşın mübarək,
Yaşa, ömrün açsın çiçək!
Ən xoş arzu, gözəl istək
Qəlbinə dolsun, Arizim!

Nənən Şərqiyyə duada,
Canı qurbandı bu ada.
Düşməninə getsin qada,
Gül kimi solsun, Arizim!

# AİLƏ HƏYATIM

Mən anadan olanda
Kənddə qarlı qış idi.
Zamanla vuruşumuz
Həyatla barış idi.

Günəşin istisini
Dağda qarlar udurdu.
Hərə zəhmət çəkərək,
Dərd-qəmi unudurdu.

Atam, anam çalışıb
Boş qoymazdı süfrəni.
Evin günəşi bilib
Öpüb sevdilər məni.

Az oldu bu sevincin,
Məni yaşadan dadı.
Atamın özü getdi,
Həyatda qaldı adı.

Anam saçın ağartdı,
Böyütdü balaların.
Ağrısını yaşadıq,
Doyunca qışın, qarın.

Böyüyüb, yaşa doldum,
Dərk elədim həyatı.
Yar oldum, ana oldum.
Sevdim bu kainatı.

Sevdim ana Vətəni,
Oğul, qız verdim ona.
Azərbaycan elində
Mənəm ən xoşbəxt ana!

# SÜLEYMAN

*(10 yaşlı Süleyman üçün)*

Adın peyğəmbər adı,
Özün şirin balasan.
Ucalasan adınla,
Zirvələrdə olasan!

Sən nəslin qeyrət tacı
Həm də şöhrət, şanı ol.
Eldə dərdlər əlacı,
Dərdlilər həyanı ol!

Vətən sənə güvənsin,
Onun eşqiylə böyü.
Böyü qəhrəman kimi,
Sev bu yeri, bu göyü.

Fəxr eləsin adınla,
Soyunu tanıyan kəs.
Bircə anın, günün də
Ötməsin yersiz, əbəs.

Süleyman, gözəl balam,
Bəzə şanlı adını.
Al həyatdan, ömürdən
Arzunu, muradını.

## İLK NƏVƏM, GÖZƏL BALAM

*Nəvəm Arizin 20 yaşına*

Həyata gəlişinlə nənə oldum, Arizim,
Gəlişinlə anladım, həyatda qalar izim.
Ən şirin arzularım bağlanıbdır adına.
Necə balam deməyim səni doğan qadına.

Ayaq açıb yeridin, uğur dilədik sənə,
Oğul, ər adı gəldi, biz səni verdik önə.
Sən çəkilən zəhməti qaldırdın yerdən göyə,
Hamı sənə güvəndi, arxa dayaqdır deyə.

İyirmi ildir Günəş oyanır səninlə bir,
Sən gözəl dərk edirsən, yaşamaq, həyat nədir.
İlk nəvəm, gözəl balam, qoy daim gülsün üzün,
Sən dadı, həm nurusan mənalı ömrümüzün.

## MURADIM

Sənin doğulduğun gün gül-çiçək ətirlidir,
Adına yazdıqlarım xoş nəğmə sətirlidir.
Səni görəndə sanki açılır qol-qanadım,
Yaşa, bəxtəvər yaşa, mənim əziz Muradım!

Ədəbin, ərkanınla mat qoyursan hamını,
Qoy Tanrı nurlu etsin balam, ömür şamını.
Bilirəm, baltək şirin, sənin dilində adım,
Hər gün coşan, kükrəyən, qəlbi dəniz Muradım!

Vətəni sevə-sevə yaxşı savad alasan,
Özün öz həyatından məmnun, razı qalasan.
Yüksələsən zirvəyə üzü ağ, addım-addım,
Hər gün ömür yolunda qoyasan iz, Muradım!

## BİR ŞƏHƏR VAR

Bir şəhər var, suvarılıb gülü qanla,
Bir şəhər var, nəfəs alır həyəcanla.
O şəhərin sakinləri qara donda,
Nələr gördü o şəhərim indi, onda?

O şəhərin qızı əsir, oğlu girov.
O şəhərçün kəfən geyib qoca Murov.
O şəhərdə şəhid oldu ana, bala.
O şəhəri düşmən saldı gör nə hala?

İllər ötdü, qisasını aldı ərlər,
O şəhərdən elə çatdı xoş xəbərlər.
Düşmənlərin başın əzdi polad yumruq,
Qəmdən çıxıb, bu gün gülür, şad oluruq.

Xocalıdır o şəhərin şirin adı,
O şəhərdə həyat özü bir dünyadı.
O şəhəri salamladı Baş Komandan,
O şəhərə həyat verdi Azərbaycan.

## LƏMANIM

*(Nəvəm Ləman üçün)*

Ağıl-zəka ilə, gözəllik ilə,
Dünyaya gəlmisən qoşa, Ləmanım!
Böyük arzumuzdur - bəxtin, talayin,
Dağların çayıtək coşa, Ləmanım!

Uğurun bol olsun, həyatın şirin,
Biləsən böyüyün, kiçiyin yerin.
Ədəbin, ərkanın, düşüncən dərin,
Odur ki, gəlirsən xoşa, Ləmanım!

Daim duaçındır Şərqiyyə nənən,
Mələksən - nur üzlü, göylərdən enən.
Anadan bəxtəvər doğulmusan sən,
Elə bəxtəvər də yaşa, Ləmanım!

## QARABAĞDA

Poladla parladı günəşin üzü,
Şəhidlər qazandı ad Qarabağda.
Familim, Ruslanım. Mehdim, Ramilim
Uddurdu düşmənə od Qarabağda.

Durdu arxamızda türk qardaşımız,
Qürurdan göylərə çatdı başımız.
Ömürlük qurudu gözdə yaşımız,
İndi biz gəzirik şad Qarabağda.

Düşməni əzmişik, vurub, yıxmışıq,
İtirib nəyi var - küncə sıxmışıq.
Doğma yurdumuza yiyə çıxmışıq,
Bir də at oynatmaz yad Qarabağda.